**İqtisadi inkişafın aynası**

Növbəti ilin dövlət büdcəsinin xərcləri artacaq

2013-cü il dövlət büdcəsinin xərcləri ÜDM-in 35,3%-ni təşkil etməklə 19,8 mlrd. manat proqnozlaşdırılır. Bu, 2012-ci illə müqayisədə 12,1%, 2011-ci ilin faktiki icrasına nisbətən isə 28,7% çoxdur. Növbəti ildə də dövlət xərcləri üzrə struktur islahatlarının davam etdirilməsi, ölkənin müdafiə qüdrətinin daha da yaxşılaşdırılması, yeni dövlət qurumlarının maliyyələşdirilməsi dövlət büdcəsindən maliyyələşən və maliyyə yardımı alan təşkilatlarda çalışan işçilərin əmək haqlarının və bir sıra sosial ödənişlərin artırılması, yeni təşkilatların fəaliyyətə başlaması, yeni dövlət proqramlarının maliyyələşdirilməsi, keçmiş SSRİ Əmanət Bankının Azərbaycan Respublikası Bankının Azərbaycan Respublikasının vətəndaşları olan əmanətçilərinə fərdi birdəfəlik ödəmələrin maliyyələşdirilməsi, ərzaq, dərman, inventar, cari təmir, təsərrüfat malları və digər xərclər üzrə xərc normalarının orta respublika göstəricilərinə uyğunlaşdırılması, Sahubkarlığa Kömək Milli Fondunun, İpoteka Fondunun nizamnamə kapitalının, «Avtomobil yolları» Məqsədli Büdcə Fondunun xərclərinin artırılması və digər zəruri məsələlərin həlli üçün vəsaitin nəzərdə tutulması hesabına 2013-cü il dövlət büdcəsinin xərcləri artırılmışıdır.




2013-cü il dövlət büdcəsinin xərclərinin strukturuna daxil olan cari xərclərə ümumi xərclərin 50,3%-i həcmində vəsait yönəldilmişdir. Mütləq ifadədə cari xərclərə 9 mlrd. 955,5 mln. manat, 2012-ci illə müqayisədə 466,9 mln. manat (4,9%), 2011-ci ilin faktiki icrası ilə müqayisədə isə 2 mlrd. 840,1 mln. manat (39,9%) çox vəsait nəzərdə tutulmuşdur. Əsaslı xərclərə ümumi xərclərin 45,8%-i həcmində və yaxud 2012-ci illə müqayisədə 15,3% çox vəsait ayrılmışdır. Əsaslı xərclərə 9 mlrd. 073,8 mln. manat vəsait yönəldilmişdir ki, bu da cari illə müqayisədə 1 mlrd. 202,8 mln. manat (15,3%), 2011-ci ilin faktiki icrası ilə müqayisədə isə 1 mlrd. 135,5 mln. manat (14,3%) çoxdur.




Dövlət borcuna xidmətlə bağlı xərclərə ümumi xərclərin 3,9%-i həcmində, yəni 780,7 mln. manat ayrılmışdır. Bu göstərici 2012-ci ilin gösrtəricisi ilə müqayisədə 2,5 dəfə çoxdur.

2013-cü il dövlət büdcəsi xərclərinin 10 mlrd. 517,6 mln. manatı (53,1%) konkret proqram və tədbirlərin maliyyələşdirilməsi üçün nəzərdə tutulmuşdur ki, bu da 2012-ci illə müqayisədə 1 mlrd. 263 mln. manat (13,6%) çoxdur. Həmin xərclərin dövlət büdcəsi xərcləri tərkibində xüsusi çəkisi cari illə müqayisədə 0,7% artmışdır.

Sosial yönümlü xərclərin 2013-cü ilin dövlət büdcəsində xüsusi çəkisi 25,4% proqnozlaşdırılır ki, bu

da cari ilə nisbətən 7,1%, 2011-ci ilin faktiki icrası ilə müqayisədə isə 16,1% çoxdur. Sosial xərclərin 1 mlrd. 750,2 mln. manatı (8,8%) təqaüdlər və sosial müavinətlərin, 2 mlrd. 822,6 mln. manatı (14,2%) əməyin ödənişinə, 295,7 mln. manatı (1,5%) ərzaq məhsullarının alınmasına, 168,6 mln. manatı (0,9%) dərman və sarğı ləvazimatlarının alınmasına yönəldilmişdir. Gələn ilin dövlət büdcəsində ümumilikdə əmək haqlarının və sosial ödənişlərin artırılması üçün üst-üstə 240 mln. manatdan çox vəsait nəzərdə tutulur.

2013-cü ildə elm xərclərinə 129,1 mln. manat vəsait xərclənməsi nəzərdə tutulur. Bu, 2012-ci illə müqayisədə 5,7 mln. manat (4,6%), 2011-ci ilin faktiki icrası ilə müqayisədə isə 23 mln. manat (21,7%) çoxdur. Həmin xərclər fundamental elmi tədqiqatların və dövlət orqanlarında mövcud olan elmi tədqiqat təşkilatları tərəfindən həyata keçirilən elmi işlərin maliyyələşməsinə yönəldiləcəkdir.

2013-cü ildə elm xərclərində əməkhaqqı sisteminin təkmilləşdirilməsi, pensiya təminatının yaxşılaşdırılması və digər tədbirlərin maliyyələşdirilməsi ilə bağlı 3,8 mln. manat; Azərbaycan Respublikası Prezidenti yanında Elmi İnkişaf Fondu vasitəsilə elmi tədqiqat layihələrinin həyata keçirilməsi üçün isə 7 mln. manat vəsait nəzərdə tutulmuşdur. Ümumilikdə son 5 ildə (2009-2013-cü illər) dövlət büdcəsinin cari xərclərində elm xərcləri 45,9 mln. manat (55,2%) artmışdır.

Növbəti ildə təhsil xərclərinə 2012-ci illə müqayisədə 18,8 mln. manat (1,2%), 2011-ci ilin faktiki icrasına nisbətən isə 261,8 mln. manat (20,6%) çox - ümumilikdə1530,4 mln. manat vəsait ayrılmışdır. Təhsil xərcləri üçün ayrılmış vəsaitin 798,8 mln. manatı (52,2%) natamam və orta təhsil xərclərinin, 394,4 mln. manatı (25,8%) təhsil sahəsində tətbiqi tədqiqatlar və digər xidmətlərin, 57,2 mln. manatı (3,7%) ali təhsil xərclərinin, 145,8 mln. manatı (9,5%) məktəbəqədər və ibtidai təhsil xərclərinin, 81,1 mln. manatı (5,3%) texniki-peşə məktəblərinin və liseylərin, 53,1 mln. manatı (3,5%) internat və xüsusi məktəblərin maliyyələşdirilməsinə yönəldiləcəkdir.

2013-cü il dövlət büdcəsində təhsil xərcləri üçün ayrılan vəsaitin 306,9 mln. manatı bir sıra dövlət proqramlarının və tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcəkdir. Son 5 ildə dövlət büdcəsinin cari xərclərində təhsil xərcləri 382,5 mln. manat (33,3%) artmışdır.

Səhiyyə xərcləri üçün növbəti ilin büdcəsindən 666,3 mln. manat vəsait ayrılmışdır ki, bu da 2012-ci illə müqayisədə 3,6 mln. manat (0,5%), 2011-ci ilin faktiki icrasına nisbətən 172,9 mln. manat (35,0%) çoxdur. 2009-2013-cü illər dövlət büdcəsinin cari xərclərində səhiyyə xərcləri 263,9 mln. manat (65,6%) artmışdır. İlk dəfə olaraq 2013-cü ilin dövlət büdcəsinin səhiyyə xərcləri bölməsində dağınıq skleroz xəstəliyinə tutulmuş insanların müalicə tədbirləri üçün 4 mln. manat vəsait nəzərdə tutulmuşdur.

Digər sahələr üzrə büdcədən ayrılmış vəsaitlər qrafikdə əks olunmuşdur.

Hazırladı:
Arzu İBRAHİMOVA